Erkən nikahlar qız uşaqlarının təhsildən kənarda qalmasına şərait yaradır. Yeniyetmə yaşda ana olanlar əksər hallarda məktəbdən uzaqlaşır, bir müddət sonra isə evdə darıxmağa, həyatından şikayət etməyə başlayırlar.

**Axı onlar özləri də hələ uşaqdırlar!**



Erkən nikahlar qız uşaqlarının cəmiyyətdən təcrid olunmasına, daha çox fiziki və cinsi zorakılığa məruz qalmasına səbəb olur.


İCTİMAİ SƏHİYYƏ VƏ İSLAHATLAR MƏRKƏZİ

Bakı, AZ1122, H.Zərdabi küç., 96

431 12 72 430 52 85 office@isim.az

www.isim.az



Buklet "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramının həyata keçirilməsi üzrə Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin Tədbirlər Planına uyğun olaraq Səhiyyə Nazirliyinin İctimai Səhiyyə və İslahatlar Mərkəzi tərəfindən hazırlanmış və çap edilmişdir.





# Erkən nikah...



**Azərbaycan Respublikasının Ailə Məcəlləsinə görə, Azərbaycanda nikaha yalnız 18 yaşdan yuxarı şəxslər daxil ola bilərlər. Yaşı 18-dən az olan uşaq və ya yeniyetmələrin ailə qurması erkən nikah sayılır.**





**Hələ də bəzi valideynlərə elə gəlir ki, xüsusən qız övladlarını tez ailə qurmağa məcbur etməklə onlar üçün daha yaxşı həyat səviyyəsi təmin etmiş olurlar. Halbuki erkən nikahlar əksər hallarda bu nəticələrə gətirib çıxarır:**

- erkən hamiləlik və onunla əlaqədar baş verən abortlar, vaxtından əvvəl doğuşlar, ginekoloji xəstəliklər, sonsuzluqla nəticələnə bilən ağırlaşmalar
- cinsi yetkinliyə çatmamış valideynlərdən zəif uşaqların doğulması
- erkən yaşda hələ yeni formalaşmağa başlayan reproduktiv sistemin hormonal pozuntusu
- erkən yaşda valideyn olmaqla bağlı yaranan sosial, mənəvi-etik problemlər.

**Erkən nikaha daxil olan qızlar bu yaşda ana olmağa həm fiziki, həm də psixi cəhətdən hazır deyillər!**

Yeniyetmə yaşda ailə quran qızlarda baş verən erkən hamiləlik riskli addımdır.

Statistika göstərir ki, 16 yaşında olan hamilələrin doğuş zamanı ölüm ehtimalı 20 yaşından yuxarı olanlarla müqayisədə 2 dəfə artıqdır. Erkən hamiləlik 19 yaşa qədər qızların ölümünün ən geniş yayılmış səbəbidir.

